**UOT 3.338**

***Nərmin Bəşir qızı CƏFƏROVA***
***Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı***
***Email: narmiinjaffarova@gmail.com***

# İNSAN KAPİTALININ İQTİSADİ İNKİŞAFA TƏSİR MEXANİZMİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – İnsan kapitalını ölçmək üçün istifadə edilən parametrik, qeyri-parametrik modellərin tədqiq edilməsi, insan kapitalının regionlar arasında bölüşdürülməsində fərqlərin müəyyən edilməsi, regional iqtisadi bərabərsizliyin azaldılması, xüsusilə də müharibədən sonrakı ərazilərdə insan kapitalının artımının stimullaşdırılması kimi məqsədlər qarşıya qoyulmuşdur.

**Tədqiqatın metodologiyası** – Tədqiqat işində şərh, ümumi yanaşma, analiz və sintez kimi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – İnsan kapitalının iqtisadi inkişafa təsiri zamanı meydana çıxa biləcək problemləri araşdırmaq və Azərbaycanın timsalında bu problemləri nəzərdən keçirməkdir. Həmçinin müharibədən sonrakı regionlarda insan kapitalının tətbiqi baxımından meydana çıxa biləcək qeyri-bərabərliklərin aradan qaldırılmasına dəstək verməkdir.

**Tədqiqatın nəticələri** – Tədqiqat işinə əsasən insan kapitalının iqtisadi inkişafa təsirinə dair araşdırmaların müxtəlifliyi aşkar edilmiş və tədqiqatın nəticəsində məhz Azərbaycanda insan kapitalı istiqamətində həyata keçirilən iqtisadi siyasətin regional iqtisadi bərabərsizliyi azaltmaqla tamamlanacağının mümkünlüyü önə çəkilmişdir. İnsan kapitalı və iqtisadi inkişaf arasındakı əlaqənin qiymətləndirilməsi zamanı meydana çıxa biləcək problemlər öyrənilmiş və insan kapitalını xarakterizə edən göstəricilərin artım statistikası nəzərdən keçirilmişdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – İnsan kapitalının iqtisadi inkişafa təsirini qiymətləndirmək üçün insan kapitalının ölçülməsi meyarlarını araşdırmaq və yeni ölçü mexanizmi hesab edilən Jorgenson-Fraumeni metodunun aktuallığını diqqətə çatdırmaq, müasir dövrdə texnoloji tərəqqinin də səhiyyə, təhsil, sosial müdafiə kimi insan kapitalının iqtisadi inkişafa təsirinin qiymətləndirilməsində rol oynadığını qeyd etməkdir.

***Açar sözlər: insan kapitalı, bərabərsizlik, iqtisadi inkişaf, təhsil, işçi qüvvəsi, ölçü meyarları.***

## *Giriş*

İnsan kapitalının iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi müxtəlif problemlərin mövcudluğu səbəbindən bir qədər mürəkkəb proses olaraq nəzərdən keçirilir. Ən mühüm problemlər arasında insan kapitalının dolayı yolla qiymətləndirilməsi problemi dayanır. Belə ki, insan kapitalının iqtisadi inkişafa təsiri öyrənilərkən insan kapitalı və ÜDM-in artım sürəti arasında əlaqənin hansı səviyyədə olması da nəzərdən keçirilməli və ÜDM-in artımında insan kapitalının hansı miqyasda paya sahib olduğu öyrənilməlidir. Xüsusilə də, inkişafı zəif olan ölkələrin təcrübəsinə baxsaq görərik ki, insan kapitalına yatırılan vəsaitlərin azlığı, əhalinin təhsili, sağlamlığı, sosial müdafiəsi üçün çəkilən xərclərin payının büdcədə az olması bu tip ölkələrdə adambaşına düşən ÜDM-in artımında insan kapitalının əhəmiyyət kəsb etməməsini deməyə əsas verir. Beləliklə də, bu tip ölkələrdə insan kapitalı və iqtisadi inkişaf arasındakı əlaqənin müəyyən edilməsi çətinləşir və alternativ ölçü vasitələrindən istifadəyə ehtiyac yaranır.

Azərbaycanın timsalında nəzərdən keçirsək deyə bilərik ki, son illər ərzində insan kapitalı və sürətli iqtisadi artım arasındakı əlaqə mexanizminin dərk edilməsində həll olunmamış məsələlər meydana çıxır və onların araşdırılması tələb olunur. Belə ki, Azərbaycanda regionlar arasında mövcud olan gəlir bərabərsizliyi, əhali üçün iş imkanlarının bütün regionlarda bərabər paylanmaması, təhsil, səhiyyə, sosial müdafiə kimi xidmətlərdən yararlanmaq səviyyəsinin bərabər olmaması səbəbindən regionların timsalında insan kapitalının iqtisadi inkişafa hansı səviyyədə fayda verməsinin müəyyən edilməsi çətinləşir. Bunun da nəticəsində insan kapitalının iqtisadi inkişafda

payının araşdırılması zamanı “ağırlıq” yenə də Bakı, Gəncə kimi iri şəhərlərin və Abşeron bölgəsinin payına düşür.

Belə ki, 2021-ci ildə Abşeron və Gəncə-Daşkəsən kimi insan kapitalının inkişafına diqqət göstərilən bölgələrdə bir işçiyə düşən ÜDM Qarabağ kimi işğaldan yeni azad olmuş ərazilərdən təxminən 4 dəfə çox olmuşdur. Bu bərabərsizlik insan kapitalının regional olaraq paylanmasında boşluqların olmasından xəbər verir. Belə ki, Abşeron regionunda işçiyə düşən ÜDM həm daha yüksək səviyyədədir, həm də güclü artım tempinə malikdir və qərb regionları şərq regionları ilə müqayisədə bu cəhətdən bir qədər geridə sayılmaqdadır. Bu fakt da aydındır ki, yüksək ixtisaslı işçi qüvvəsi daha inkişaf etmiş regionlarda cəmləşmişdir, bunun da nəticəsidir ki, insan kapitalının iqtisadi inkişafa təsiri ayrı-ayrı regionlar üzrə araşdırılır və ümumi nəticənin əldə olunması zamanı regionlar arasında bərabərsizlik halları meydana çıxır. Tədqiqat işinə əsasən, qeyd olunan bu kimi bərabərsizliklərin aradan qaldırılması, gəlirlərin paylanmasında bərabər nisbətlərin əldə olunması qarşıya məqsəd olaraq qoyulmalıdır.

**İnsan kapitalının iqtisadi inkişafda rolu**

İnsan kapitalının iqtisadi inkişafa təsirinin yalnız bir komponent, məsələn yalnız təhsil, və yaxud yalnız səhiyyə sahəsi ilə öyrənilməsi insan kapitalına qoyulan investisiyaların hansı keyfiyyətdə özünü büruzə verəcəyi barədə dolğun informasiya vermir. Buna əsasən deyə bilərik ki, insan kapitalının iqtisadi inkişafa təsirinə dair tədqiqat nəticələri müxtəlifdir və müasir dövrdə texnoloji tərəqqi də səhiyyə, təhsil, sosial müdafiə kimi insan kapitalının iqtisadi inkişafa təsirinin qiymətləndirilməsində rol oynamaqdadır. Aydındır ki, texnoloji tərəqqinin əsasında yüksək təhsilli əmək dayanır, insanların təhsil dairəsi genişləndikcə texnoloji tərəqqinin miqyası da genişlənə bilər, hansı ki, inkişaf etmiş ölkələr üçün iqtisadi artımının əsas hərəkətverici qüvvəsini məhz bu texnoloji tərəqqi təşkil etmişdir [10]. Müasir dövrdə iqtisadiyyatın inkişafında texnologiya mühüm rol oynadıqca, innovasiyalar inkişaf üçün mühərrikə çevrildikcə insan kapitalı daha çox əhəmiyyət kəsb edir. Bunun əsas səbəbi isə ondan ibarətdir ki, texnoloji yenilikləri və innovasiyaları məhz bilikli, təhsilli işçi qüvvəsi vasitəsilə hərəkətə gətirmək və tətbiq etmək mümkündür [6].

Aydındır ki, hazırda Azərbaycanda genişmiqyaslı sosial-iqtisadi siyasət həyata keçirilməkdədir və bu siyasət nəticəsində əldə olunmuş nəticələrin insanların sosial inkişafına yönəldilməsi əsas hədəflərdəndir. Belə ki, həyata keçirilməkdə olan bu siyasət nəticəsində davamlı inkişafa nail olmaq mümkündür. Davamlı inkişafın əsas hərəkətverici qüvvəsi isə insan vasitəsilə reallaşdırılan kapital qoyuluşlarıdır.

İnsan kapitalına yatırılan vəsaitin iqtisadi artıma öz bəhrəsini verməsi adətən zaman faktoru və regionlar üzrə əlaqədən asılı olur. Belə ki, bir insanın təhsil alması, nəzəri əldə etdiklərini praktikaya tətbiq etməsi, ölkə üçün fayda verə biləcəyi nəticələrin əldə edilməsi müəyyən zaman tələb edir, eləcə də, regionlar üzrə inteqrasiyanın qurulması da insan kapitalının dövr etməsinə, mobilliyinə gətirib çıxarır. Hazırda rayon yerlərindən gənc kadrların şəhərlərə axın etməsi halları müşahidə edilməkdədir, belə ki, bu kadrlar bir çox hallarda təkrar regionlara geri dönüş etmirlər və rayonlarda potensiallı kadr qıtlığı müşahidə olunur. Bunun da nəticəsində, ölkənin əsas iqtisadi göstəriciləri hesablanarkən şəhərlərdə nisbət yüksək olur, regionlar yenə də geridə qalırlar. Məhz bu disbalansı aradan qaldırmaq üçün regionlar arasında gücləndirilmiş iqtisadi əlaqənin qurulmasını məqsədəmüvafiq hesab etmək olar.

**İnsan kapitalının ölçüləri**

İqtisadi inkişafın müəyyən edilməsində insan kapitalının müxtəlif ölçü meyarlarından istifadə edilir ki, bu da insan kapitalı və iqtisadi artım arasında əlaqənin müəyyən edilməsini çətinləşdirir. Belə ki, XX əsr nəzəriyyələrində ölkələrin inkişaf səviyyəsi adətən gəlirin adambaşına düşən nisbəti, ÜDM-in artım sürəti və həcmi, ticarət balansı və s. göstəricilər əsasında ölçülürdü. Devid Morres tərəfindən 1970-ci ildə irəli sürülmüş təklifə əsasən həyatın keyfiyyəti körpələr arasında ölüm göstəriciləri, yetkinlərin savadlılıq səviyyəsi, ömür uzunluğu kimi göstəricilərə əsaslanmaqla müəyyən edilirdi. 1990-cı ildə ilk “İnsan İnkişafı Hesabatı” hazırlanmış və iqtisadi inkişafın daha zəngin konsepsiyası irəli sürülmüşdür, bununla da, insan inkişafı indeksinin tətbiqinə başlanıl-

mışdır [1]. İlkin hesabatda əhalinin ömür uzunluğu, qazandıqları təhsilin səviyyəsi, bilikli olmaq imkanı kimi göstəricilər nəzərə alınmaqla insan inkişafı indeksi tərtib olunmuşdur. Bu indeksin hesablanma yolları, təklif olunan əlavə indekslər zaman-zaman inkişaf yolu keçmişdir. Məsələn, insan inkişafı indeksi hesablanarkən 2010-cu ilə qədər orta ömür uzunluğu, əhali arasında savadlılıq səviyyəsi, əhalinin alıcılıq qabiliyyəti və adambaşına düşən ümumi daxili məhsul arasındakı nisbət nəzərə alınırdısa, artıq 2010-cu ildən etibarən bu metodologiya dəyişdirilmişdir. Bəzi tətbiq olunan indekslər isə qısamüddətli olmuşdur, məsələn, 1995-ci ildə “Gender Bərabərsizliyi İndeksi” əlavə olunmuş, lakin birdəfəlik indeks hesab edilmişdir.

Ölkənin iqtisadi inkişafında insan kapitalının hansı səviyyədə rol oynadığını müəyyən etmək üçün təhsil, səhiyyə göstəriciləri ilə yanaşı, iqtisadi ədəbiyyatlarda yeni ölçü meyarı kimi qəbul edilən “ömür boyu gəlir” yanaşmasından da istifadə olunmağa başlanmışdır. Bu indeks əhalinin layiqli həyat səviyyəsi göstəricilərinə hansı səviyyədə malik olduğunu aşkara çıxarmaq üçün tətbiq edilməyə başlanmışdır.

İnsan kapitalının ölçülməsində istifadə olunan “ömür boyu gəlir” metodu Jorgenson Fraumeni (J-F) metodu olaraq qeyd edilir [7]. J-F metodu əməyin bazar dəyərini əks etdirir və ömür boyu gözlənilən gəlirin cari dəyərinin hesablanması əsasında müəyyən edilir. Beləliklə, J-F metodu insanın özünü inkişaf etdirməsi üçün tətbiq etdiyi investisiyalardan əldə olunan qazancı əks etdirir. Bu investisiyaya məktəbəqədər təhsil, iş yerində öyrənmə kimi sahələrə aid edilən investisiyaları daxil etmək olar. Bu metoda əsasən insan kapitalına qoyulan investisiyalardan əldə olunan qazanc insanın özünü inkişaf etdirməsi, insanın mobilliyinin artırılmasının əsasında dayanır. Aparılan araşdırmalar göstərir ki, J-F metodu insan kapitalının qiymətləndirilməsində bir sıra ölkələrdə tətbiq edilmiş və İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı (OECD) tərəfindən qəbul edilmişdir.

Azərbaycanda da insan kapitalının qiymətləndirilməsində J-F metodunun tətbiq edilməsi məqsədəuyğun ola bilər [5]. Bu metoda əsasən hər bir fərdin gözlənilən ömür boyu gəliri təxmin edilir və bunun da əsasında insan kapitalının qiymətləndirilməsi həyata keçirilir. Bu metodu tətbiq etməklə insan kapitalının qiymətləndirilməsi üçün hər bir fərdin gözlənilən gəliri toplanır və ümumi insan kapitalı ehtiyatı əldə edilir. Metoda əsasən insan kapitalı qiymətləndirilərkən əhalinin cins, yaş tərkibi, təhsil səviyyəsi, şəhər və kənd ərazisi üzrə yerləşməsi kimi faktorlar da nəzərə alınır.

J-F yanaşmasına əsasən insan kapitalı gözlənilən gəlirə əsasən qiymətləndirildikdə fərdin həyat dövrü müxtəlif mərhələlərə bölünür: məktəbəqədər dövr, təhsil dövrü, iş dövrü, əmək pensiyası dövrü. Lakin bu bölünmə əsasında insan gəlirlərinin müəyyən edilməsi zamanı uyğunsuzluqlar da baş verə bilər. Məsələn, orta hesabla 16-26 yaş arası fərd həyat mərhələsinin həm təhsil dövründə, həm də iş dövründə ola bilər [1]. J-F yanaşması hər bir fərdin gözlənilən ömür boyu gəlirini təxmin etməklə başlayır və sonra ümumi insan kapitalı ehtiyatını əldə etmək üçün bütün fərdlər üzərində cəmlənir $H_t$:

$$H_t = \sum_s \sum_a \sum_e \sum_r mi_{s,a,e,r,t} l_{s,a,e,r,t}$$

burada t alt simvolu, $l_{s,a,e,r,t}$ isə müvafiq olaraq cinsin, yaşın, təhsil səviyyəsinin və yerləşmənin fərdi xüsusiyyətlərini (şəhər və kənd ərazisini) ifadə edir. Dəyişən mi s, a, e, r, t yuxarıda göstərilən xüsusiyyətlərə malik olan fərd üçün gözlənilən ömür boyu orta əmək gəliri, l s, a, e, r, t isə xüsusi kateqoriyadakı əhalidir.

Azərbaycanda insan kapitalının qiymətləndirilməsi üzrə göstəricilər illər ərzində əhəmiyyətli dərəcədə artmışdır. Belə ki, 2000-ci ildə insan kapitalının ölçülməsində orta məktəbdə təhsil göstəricisi Azərbaycanda cəmi 13,04 % idisə, artıq 2021-ci ilə qədər bu göstərici 32,56 %-ə yüksəlmişdir. Regionlarda orta təhsil alanların sayı təxminən 6 dəfə artmışdır. İbtidai təhsil alanların orta məktəbi bitirmə əmsalı 9.82 olmuşdur ki, bu da əhəmiyyətli göstərici sayılmışdır. Bir işçiyə düşən insan kapitalı göstəriciləri təhsilə əsaslanan tədbirlər sayəsində sürətli artım göstərmişdir. Belə ki, 1992-2021-ci illər ərzində bir müəssisədə işçiyə düşən insan kapitalı göstəricilərində 37,60 min AZN-dən 163,42 min AZN-ə qədər – dörd dəfədən çox – artım olmuşdur.

*Cədvəl 1.*

***İnsan kapitalı göstəricilərinin artım statistikası***

| Göstərici | 2000 | 2002 | 2012 | 2021 |
|---|---|---|---|---|
| İşçiyə düşən real ÜDM əmsalı | 0.186 | 0.398 | 0.962 | 2.377 |
| Ali təhsil dərəcəsi | 13.04 | 18.07 | 23.56 | 32.555 |
| Orta təhsil | 6.213 | 7.711 | 8.707 | 9.823 |
| İşçiyə düşən insan kapitalı göstəricisi | 37.60 | 40.15 | 89.09 | 163.41 |
| Əməkhaqqının orta artım dərəcəsi | 0.296 | 0.305 | 0.410 | 0.666 |

2021-ci il ərzində regional olaraq insan kapitalı göstəricilərinə baxsaq görərik ki, əvvəlki illərlə müqayisədə ən azı 2-3 dəfə artım müşahidə edilmişdir. Bir işçiyə düşən real ÜDM həcmində də 2 dəfədən çox olaraq davamlı artım müşahidə edilmişdir (Cədvəl Kropko J. & Kubinec R. (2020), “Interpretation and identification of within-unit and cross-sectional variation in panel data models” [9] əsasında Azərbaycan üçün tərtib edilmişdir).

İnsan kapitalının bütün göstəriciləri üzrə Azərbaycanda 1992-ci ildən 2000-ci ilə qədər azalma müşahidə olunmuş, lakin cədvəldən də göründüyü kimi 2000-ci ildən 2021-ci ilə qədər əhəmiyyətli dərəcədə artım baş vermişdir. Bunun da əsas səbəblərindən biri o olmuşdur ki, həmin dönəmlərdə Azərbaycan keçid dövründə olmuş, müharibədən yeni çıxmış bir ölkə kimi özünübərpa dövrünü yaşamışdır. Regionların yenidən dirçəlişi əhəmiyyətli şəkildə vəsait qoyuluşu tələb etmiş və fiziki kapital qoyuluşu regionlar arasında qeyri-bərabər paylanmışdır. Belə ki, 20-ci əsrin sonlarında müharibədən yeni çıxmış bir ölkə olan Azərbaycanda Abşeron bölgəsində 12,70 milyon AZN fiziki kapital qoyuluşu olduğu halda, şimal-şərq, mərkəz və qərb bölgələrində yalnız müvafiq olaraq 11,09, 9,42 və 5,21 milyon AZN fiziki kapital qoyuluşu həyata keçirilmişdir. Belə ki, inkişafı zəif gedən regionların iqtisadi inkişafını artırmaq üçün bir sıra proqramlar həyata keçirilmiş və nəticədə 2021-ci ilə qədər bütün regionlarda fiziki kapital qoyuluşu ilə yanaşı insan kapitalına vəsait yatırımı da kəskin şəkildə artmışdır. Bütün bunlara baxmayaraq 2021-ci ildə hələ də Abşeron, Bakı kimi bölgələr 616,06 milyon AZN ilə ən yüksək kapital qoyuluşuna malik ərazilər olmuşdur. Gəncə, Mingəçevir kimi digər iri şəhərlərdə isə bu göstərici Bakı ilə müqayisədə 2,13 dəfə az olmuşdur [5].

Eyni zamanda, Azərbaycanda fiziki sərmayə qoyuluşu ilə insan kapitalına sərmayə qoyuluşu arasında böyük disbalans var. Belə ki, ÜDM-in böyük hissəsi fiziki investisiyaya ayrılmışdır, hansı ki, həmin investisiya insan kapitalına yatırılan investisiyalarla müqayisədə daha aşağı gəlirlilik dərəcəsinə malikdir. İnsan kapitalı və fiziki kapitalın bu cür düzgün bölüşdürülməməsi o deməkdir ki, Azərbaycan iqtisadiyyatı yüksək artım templərinə nail olmasına baxmayaraq, regionlarda hələ də insan kapitalının inkişafı ləng gedir, yüksək ixtisaslı işçi qüvvəsinə ehtiyac vardır, regionlar arasında inteqrasiya gücləndirilməlidir ki, insan kapitalının mobilliyi də təmin olunsun [10].

## *Nəticə*

Ölkənin iqtisadi inkişafının müəyyən edilməsində insan kapitalının inkişaf indeksi təkcə iqtisadi artımın deyil, həm də əhalinin sahib olduğu imkanların müəyyən edilməsində başlıca meyar kimi çıxış etməkdədir. İki ölkənin insan inkişafının səviyyəsini araşdırsaq görərik ki, həmin ölkələrdə adambaşına düşən milli gəlir göstəriciləri bir-birinə yaxın olsa da, insan inkişafı səviyyəsinə görə bir-birindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Buna əsasən də belə nəticəyə gələ bilərik ki, iqtisadi inkişaf və insan kapitalı arasındakı uyğunsuzluqların aşkara çıxarılması milli inkişaf perspektivlərinə əsaslanmaqla həyata keçirilməlidir.

İqtisadi inkişafda insan kapitalının rolunun müəyyən edilməsi üçün insan inkişafı indeksinin tətbiqinin müəyyən çatışmazlıqları ola bilər. Ölkələrin insan inkişafı indeksinə görə qruplaşdırılmasında məqsəd ölkələri müqayisə etmək deyildir, hər bir ölkənin daxili inkişafına diqqət yetirməkdir. Belə ki, hər bir ölkə fərqli coğrafi mühitə malikdir, tarixi cəhətdən və geosiyasi mövqeyinə görə bir-birindən fərqlənir, hər birinin özünəməxsus mədəni və milli dəyərləri vardır. İnsan inkişafı

indeksinin ölçülməsində də məqsəd ölkələrin bir-birinin təcrübəsindən bəhrələnməsi və ədalətli həyat şərtlərini təmin etməkdir.

Tədqiqat işinə əsasən belə nəticəyə gəlmək olar ki, insan kapitalının iqtisadi inkişafdakı rolunu qiymətləndirən zaman iqtisadi ədəbiyyatlarda müasir model hesab olunan Jorgenson-Fraumeni (J-F) modelinin tətbiqi əhəmiyyətli nəticələr verəcəkdir. Belə ki, bu model əsasında insan kapitalı qiymətləndirilərkən təkcə təhsil illəri, yüksək təhsilli işçi qüvvəsi deyil, həm də əhalinin gözlənilən gəlir göstəriciləri, əhalinin ömür uzunluğu da nəzərə alınmaqla daha dəqiq nəticənin əldə olunması mümkündür. Bu model həm də əhalinin şəhər və rayonlar üzrə yerləşmə göstəricilərini də özündə əks etdirdiyindən regionlar üzrə insan kapitalının qiymətləndirilməsində tətbiq edilməsi mümkündür.

İnsan kapitalı ümumilikdə iqtisadi inkişafa əhəmiyyətli dərəcədə müsbət təsir göstərir və biz bu təsirin sürətinin insan kapitalının regionlar üzrə hansı səviyyədə paylanmasından asılı olduğunu qeyd edə bilərik. Eləcə də, insan kapitalının iqtisadi inkişafa təsiretmə səviyyəsi də regional olaraq bir-birindən fərqlənir. Bunun üçün də, hazırda regionlar üzrə qeyri-bərabər bölüşdürülməkdə olan insan kapitalının iqtisadi inkişafa hansı səviyyədə təsirini araşdırmaq üçün daha təkmil modelin tətbiqinə ehtiyac yaranır. Beləliklə də, əksər ölkələrdə tətbiq olunan J-F modeli əsasında insan kapitalını ölçərək iqtisadi inkişafa təsir səviyyəsini üzə çıxarda bilərik.

Azərbaycanda da insan kapitalının iqtisadi inkişafa təsirinin müəyyən edilməsi zamanı orta gəlir göstəricilərindən istifadə edilməsini təklif etmək olar. Azərbaycanın regionlarında orta məktəb təhsilinin aşağı səviyyədə olması bu regionlarda orta gəlir göstəricilərinin aşağı olmasına birbaşa təsir edən faktor hesab olunur. Belə ki, yüksək ixtisaslı işçi qüvvəsinin regionlar üzrə bölgü nisbəti aşağı olduğundan həmin regionlar orta gəlir göstəricilərinin aşağı olması ilə xarakterizə olunur. Xüsusilə də regionlarda insan kapitalının bölgüsü üzrə bərabərsizlik də zamanla gəlir bərabərsizliyini gücləndirə bilər. Bu bərabərsizliyi aradan qaldırmaq üçün regionlarda həyata keçirilən dövlət siyasətinə əsasən ilk növbədə insan əməyinin tətbiqi üzrə şəraitin yaxşılaşdırılması, yüksək texnologiyalı sənayelərin inkişaf etdirilməsi, bir-birini tamamlamaq üçün ali məktəb və kollec təhsilinin təşviq edilməsi təklif edilə bilər. Azərbaycanda regional iqtisadi bərabərsizliyi azaltmaq üçün bütün bölgələrə bərabər miqyasda kapital qoyuluşunun həyata keçirilməsi vacib şərtlərdən hesab olunmalıdır. Belə ki, İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə iqtisadi inkişafa nail olunması həmin bölgəyə insan kapitalı və fiziki kapital qoyuluşlarının paralel şəkildə həyata keçirilməsi yolu ilə mümkündür.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu, "İnsan kapitalının inkişafı: nəzəri aspektləri və qiymətləndirmə metodologiyası". Bakı: "Çap ART" Nəşriyyatı, 2017, 28 s.
2. Bilik iqtisadiyyatının formalaşmasında insan kapitalının rolu // Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun "Dirçəliş-XXI əsr" jurnalı, №187. 2018.
3. Qloballaşma şəraitində Azərbaycada sosial-iqtisadi inkişafın prioritet istiqamətləri // Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, "Heydər Əliyev irsi və Azərbaycan Respublikasında innovativ dövlət idarəçiliyi islahatları" mövzusunda elmi-praktiki konfransının materialları, Bakı-2017. s. 208-214.
4. İnsan kapitalı anlayışının genezisi//AMEA. "Gənc tədqiqatçı" jurnalı, cild 4. 2018.
5. CIA (2020). The World Factbook: Azerbaijan. Retrieved from https: //www. cia.gov/library/ publications /the - world-factbook/geos/aj.html.
6. Fleisher, B. M., Hu, Y., Li, H., & Kim, S. (2011). Economic transition, higher education and worker productivity. Journal of Development Economics, 94(1), 86–94.
7. Giannone, E. (2017). Skilled-Biased Technical Change and Regional Convergence. University of Chicago [Unpublished manuscript].
8. Glaeser, L. E., & Lu, M. (2018). Human-capital externalities in China. NBER [NBER working paper, No. w24925].

9. Kropko, J., & Kubinec, R. (2020). Interpretation and identification of within-unit and cross-sectional variation in panel data models. PLoS One, 15(4), Article e0231349.
10. Sun, X., Li, H., & Ghosal, V. (2020). Firm-level human capital and innovation: Evidence from China. China Economic Review, 59, 1–15.

***Нармин Башир кызы Джафарова***
***докторант Азербайджанского Государственного***
***Экономического Университета***
***Email: narmiinjaffarova@gmail.com***

## Механизм влияния человеческого капитала на экономическое развитие

***Резюме***

**Цель исследования** - Исследование параметрических и непараметрических моделей измерения человеческого капитала, определение различий в распределении человеческого капитала между регионами, снижение регионального экономического неравенства, стимулирование роста человеческого капитала, особенно в послевоенных регионах.

**Методология исследования** - В исследовательской работе использовались такие методы, как интерпретация, общий подход, анализ и синтез.

**Практическое значение исследования -** Исследовать проблемы, которые могут возникнуть при влиянии человеческого капитала на экономическое развитие и рассмотреть эти проблемы на примере Азербайджана. Это также должно поддержать устранение неравенства, которое может появиться с точки зрения применения человеческого капитала в послевоенных регионах.

**Результаты исследования** - На основе исследовательской работы было выявлено многообразие исследований влияния человеческого капитала на экономическое развитие, и в результате исследования возможность того, что экономическая политика, реализуемая в направлении человеческого капитала в Азербайджане, будет завершена на первый план выдвигается сокращение регионального экономического неравенства. Изучены проблемы, которые могут возникнуть при оценке связи между человеческим капиталом и экономическим развитием, и рассмотрена статистика роста показателей, характеризующих человеческий капитал.

**Оригинальность и научная новизна исследования**- Чтобы оценить влияние человеческого капитала на экономическое развитие, важно изучить критерии измерения человеческого капитала и особенно подчеркнуть актуальность метода Йоргенсона-Фраумени, который считается новым механизмом измерения, и отметить, что в наше время технологический прогресс, такой как здравоохранение, образование и социальная защита, играет роль в оценке влияния человеческого капитала на экономическое развитие.

***Ключевые слова: человеческий капитал, неравенство, экономическое развитие, образование, рабочая сила, критерии измерения.***

***Narmin Bashir Jafarova***
***Azerbaijan State Economic University, PhD student***
***Email: narmiinjaffarova@gmail.com***

## The impact mechanism of human capital on economic development

***Summary***

**The purpose of the study** - Researching parametric and non-parametric models used to measure human capital, determining differences in the distribution of human capital between

regions, reducing regional economic inequality and especially in the post-war areas such goals as stimulating the growth, of human capital have been set.

**Research methodology** - Methods such as interpretation, general approach, analysis and synthesis were used in the research work.

**Practical significance of the research** - Is to investigate the problems that may arise during the influence of human capital on economic development and consider these problems in the example of Azerbaijan. It is also to support the elimination of inequalities that may appear in terms of the application of human capital in post-war regions.

**Research results** - Based on the research work, the diversity of studies on the impact of human capital on economic development was revealed, and as a result of the research, the possibility that the economic policy implemented in the direction of human capital in Azerbaijan will be completed by reducing regional economic inequality was brought to the fore. The problems that may arise during the assessment of the relationship between human capital and economic development were studied and the growth statistics of indicators characterizing human capital were reviewed.

**Originality and scientific novelty of the research** - In order to evaluate the impact of human capital on economic development, it is important to examine the criteria for measuring human capital and especially to highlight the relevance of the Jorgenson-Fraumeni method, which is considered a new measurement mechanism, and to note that in modern times, technological progress, such as health care, education, and social protection, plays a role in evaluating the impact of human capital on economic development.

***Key words: human capital, inequality, economic development, education, labor, measurement criteria.***